# *İlham RƏHİMLİ-75*



***Hörmətli İlham Rəhimli!***

***Sizi - görkəmli teatrşünas alimi 75 illik yubileyiniz münasibətilə təbrik edirik.***

***Siz 1949-cu ildə Yevlax rayonunun Malbinəsi kəndində anadan olmusunuz.***

***1967-1972-ci illərdə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İnstitutunun teatrşünaslıq fakültəsində təhsil aldıqdan sonra "Kommunist", indiki "Xalq qəzeti"ndə əmək fəaliyyətinə başlamısınız. Burada müxtəlif vəzifələrdə, o cümlədən, mədəniyyət şöbəsinin müdiri işləmisiniz. Sonrakı illərdə "Azərbaycan qəzeti"nin baş redaktoru, Prezident Aparatının humanitar şöbəsinin məsul işçisi kimi fəaliyyətinizi davam etdirmiş, 10 il Akademik Milli Dram Teatrının ədəbi hissə müdiri vəzifəsində çalışmısınız.***

***Teatra aid ilk yazınız 1969-cu ildə "Azərbaycan gəncləri" qəzetində çap edilib. Səhnə sənətinə, kinoya, təsviri incəsənətə, dramaturgiyaya, aktyor və rejissor peşəsinə, mədəniyyətin müxtəlif sahələrinə aid çoxsaylı məqalə və kitablarınız oxucular tərəfindən maraqla qarşılanıb. Nəzəriyyəçi alim, milli teatrımızın yorulmaz tədqiqatçısı kimi Dehli, Praqa, Moskva, Tehran, Dəməşq, Kiyev, İstanbul, Berlin, Brüssel, Paris, Roma şəhərlərində Beynəlxalq teatr simpoziumlarında elmi məruzələrlə çıxış etmisiniz.***

***Siz Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl qələm", Azərbaycan Teatr Xadimləri İttifaqının "Qızıl Dərviş", "Humay" mükafatları laureatı, Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru və professorsu, Azərbaycan Prezidentinin fərdi təqaüdçüsüsünüz. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin teatr tarixi kafedrasında uzun illərdi ki, dərs deyirsiniz. 2007-ci ilin aprel ayından Azərbaycan Televiziya və Radio Qapalı Səhmdar Cəmiyyətinin "Maarifçilik" redaksiyasında baş redaktor kimi çalışmısınız. Hazırda Mədəniyyət kanalının direktor müavini kimi fəaliyyətinizi davam etdirirsiniz.***

***Hörmətli İlham Rəhimli!***

***Sizi bir daha 75 illik yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, yaradıcılığınızda uğurlar arzulayırıq.***

*Azərbaycan Yazıçılar Birliyi*